# Regionların inkişaf proqramı uğurla icra edilir

***Prezident İlham Əliyevin rəhbərliyi ilə qlobal pandemiya dövründə Azərbaycanın bölgələrinin inkişafı istiqamətində atılan addımlar, reallaşdırılan layihələr diqqət çəkir. Ötən müddət ərzində dövlətimizin başçısının rayonlara səfərləri çərçivəsində sosial obyektlərin, yeni müəssisələrin açılış mərasimlərindəki çıxışları, imzaladığı sərəncamlar, müvafiq strukturların nümayəndələrinə verdiyi tapşırıq və tövsiyələri mühüm önəm daşıyır. Bu qayğı və diqqət bölgələrimizə yeni nəfəs gətirməklə yanaşı, yeni imkanlar açır, rayon mərkəzləri və kəndlərin tərəqqisi üçün yeni vəzifələr müəyyənləşdirir.***








Dövlətimizin başçısının həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ilə bağlı indiyədək qəbul edilən dövlət proqramları (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illər üzrə) respublikamızın sosial-iqtisadi simasının dəyişməsi baxımından mühüm önəm daşıyıb. Bu proqramların uğurla icra olunması nəticəsində regionların potensialı artıb, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşıb və əhalinin rifahı yüksəlib.

Sonuncu regional proqramın uğurlu icrası ötən il üzrə sosial-iqtisadi göstəricilərdə də öz ifadəsini tapıb. Bu dövrdə qeyri-neft sənayesində 20 faizdən çox artım qeydə alınıb. Qeyri-neft ixracı 44 faiz artıb. Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi artaraq 53 milyard ABŞ dollarını keçib.

Regionların inkişafından danışarkən, bir məqama da toxunmaq istərdik. Belə ki, keçən il Prezident İlham Əliyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 7 iyul 2021-ci il tarixli Fərman imzalayıb. Fərmanda ölkəmizin iqtisadi rayonlarının yeni bölgüsünü fərqləndirən bir sıra məqamlar öz ifadəsini tapıb. Belə ki, Gəncə–Qazax iqtisadi rayonunun əvəzinə Gəncə–Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları) və Qazax–Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları) yaradılıb. Ölkənin ən böyük iqtisadi rayonu olan Aran iqtisadi rayonunun da tərkibinə yenidən baxılıb və 3 iqtisadi rayon – Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları); Mil–Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları); Şirvan–Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları) yaradılıb.

Bakı Abşeronun tərkibindən ayrılaraq, ayrıca bir iqtisadi rayon kimi qəbul edilib. Bundan başqa Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının təsis olunmasını şərtləndirib. Xatırladaq ki, Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları daxil edilib. Şərqi Zəngəzur iqtisadi rayonu isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları əsasında qurulub.

Beləliklə, Bakı, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması ilə Azərbaycan iqtisadiyyatı üç dəfədən çox böyüyüb, iqtisadiyyatın regional və sektoral strukturu dəyişib, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən, Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar üzə çıxarıb. Fərmanda göstərildiyi kimi, Qarabağ bölgəsinin sürətli inkişafına zəmin yaranıb.

Sözügedən fərmanın imzalanması Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında bərpa-quruculuq işlərini daha da sürətləndirib. Həmin ərazilərdə müharibə başa çatdıqdan indiyə qədər olan müddət ərzində kommunal, iqtisadi və sosial infrastrukturun qurulması istiqamətində mühüm addımlar atılıb.

Azad olunan ərazilərin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası, burada əhalinin məşğulluğunun təmin edilməsi, istehsal, xidmət, ticarət, nəqliyyat, logistika və digər sahələrin yaradılması da diqqət mərkəzində olan əsas məsələlərdən biridir. Bütün bunlar ümumilikdə Azərbaycanın iqtisadi potensialının daha da güclənməsinə, ümumi daxili məhsul istehsalında ciddi artıma səbəb olacaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən ötən il avqustun 17-də Laçın Beynəlxalq Hava Limanının təməli qoyulub, avqustun 29-da Şuşada dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı olub, həmçinin Şuşa şəhərinin baş planı təqdim edilib, avqustun 30-da isə Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə Vaqif Poeziya Günləri yenidən keçirilib. Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva tərəfindən oktyabrın 5-də Cəbrayıl şəhərinin, oktyabrın 18-də isə Füzuli şəhərin bərpasının təməl daşı qoyulub.

"Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalanandan sonra respublikamızın bütün iqtisadi rayonlarında, xüsusən Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərə nəzər salanda görülən işlərin geniş miqyas alması, səmərəliliyin artması diqqət çəkir. Bu fərman, eyni zamanda, ölkədə iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını, institusional islahatların sürətini şərtləndirir, xüsusən də iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyini artırır.

Azərbaycanda iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına daim həssaslıqla yanaşılır. Ayrı-ayrı proqramların icrası zamanı da bu məsələ xüsusi diqqətdə saxlanılır. Ölkənin güclü iqtisadi inkişafı, maliyyə imkanlarının artması isə iş yerlərinin yaradılması prosesini sürətləndirir. Beləliklə, respublikada iqtisadi fəallığın davamlı şəkildə artması fonunda yeni iş yerləri açılır, bu isə təbii ki, insanların həyat səviyyəsinin yüksəlməsində, sosial şəraitinin daha da yaxşılaşmasında özünü qabarıq büruzə verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Qarabağın və Şərqi Zəngəzurun bərpası, eləcə də digər bölgələrimizin inkişafı istiqamətində atılan addımlar, reallaşdırılan layihələr diqqət çəkir. Bu yöndə dövlətimizin başçısının bölgələrə mütəmadi səfərləri çərçivəsində etdiyi çıxışlar, imzaladığı sərəncamlar, müvafiq strukturların nümayəndələrinə verdiyi tapşırıq və tövsiyələr də mühüm önəm daşıyır. Bu qayğı və diqqət regionlarımıza yeni nəfəs gətirməklə yanaşı, yeni imkanlar da açır, bölgələrin tərəqqisi üçün yeni vəzifələr müəyyənləşdirir.

Yeri gəlmişkən, burada bir məqamı xüsusilə vurğulamaq istərdik. Belə ki, son 18 ildə respublikamızda kənd yollarının inşası və yenidən qurulması geniş vüsət alıb. Bütün bölgələrdə yolların tikintisi ilbəil daha da genişləndirilib. Həm sosial, həm də iqtisadi baxımdam mühüm önəm daşıyan bu layihələrin icrası nəticəsində on minlərlə yeni iş yeri açılıb. Təzə kənd yolları yerlərdə aqrar bölmənin əsaslı şəkildə inkişafına təkan verib, kənd təsərrüfatı məhsullarının bazarlara rahat və operativ şəkildə çatdırılmasına əlverişli şərait yaradıb. Kənd yollarının inşasının genişləndirilməsi məqsədilə büdcə vəsaiti ilə yanaşı, Prezidentin Ehtiyat Fondundan da əlavə vəsait ayrılıb.

Həyata keçirilən bütün bu tədbirlər respublikada qeyri-neft sektorunun davamlı inkişafına, kommunal xidmətlərin, sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artırılmasına, yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib.

Sonda bir məqamı da xatırladaq. Regionların 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramından əvvəl bu istiqamətdə qəbul edilən (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) digər proqramların icrası dövründə ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən, qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə reallaşdırılan məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə açılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib. Dövlət proqramları çərçivəsində görülən genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaradıb.

***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 9 yanvar.- S.4.